**Qərbi Azərbaycanlılar son iki yüz ildə ermənilər tərəfindən deportasiya və soyqırımına məruz qalmış, tarixi dədə-baba yurdlarını tərk etməyə məcbur olmuşlar. İndi dünyanın ən müxtəlif məkanlarında məskunlaşan bu insanların böyük bir hissəsi həyatda olmasalar da, onların yaşadıqları müsibətlər ağrı-acılarına sahib çıxan övladları üçün də unudulmayan həqiqətlərdir. Köhnə dostum Türkiyənin 3-cü böyük şəhəri olan İzmirin Mədəniyyət İdarəsinin müdiri Murat Karaçanta belə deyir.**

# Böyük qayıdış...

## *Türkiyədəki Qərbi azərbaycanlılar nə düşünür*



Nə az, nə çox, təqribən 10 il əvvəl azərbaycanlı jurnalistlərin Egey bölgəsinə səfəri zamanı tanımışdım Murat Karaçantanı. O zaman İzmirin qədim və tarixi yerlərindən sayılan Asansorda axşam yeməyində azərbaycanlı jurnalistləri salamlayan İzmir şəhər valiliyinin, şəhər bələdiyyəsinin rəhbər işçiləri sırasında Mədəniyyət İdarəsinin rəis müavini Murad Karaçanta və idarənin şöbə müdiri, jurnalistləri müşayiət edən Güzfent xanım Diləmrə də var idi. Sonralar da çox yaxın dost olduğum və İzmirə hər səfərimdə ziyarət etdiyim Güzfent xanım və Murat bəylə ilk tanışlığımız o vaxtlardan başlayır.

Əslində, bu tanışlıq jurnalist həmkarlarımın hər birində xoş ovqat yaratmışdı, xüsusən də Murat Karaçantanın olduqca səmimi və qayğıkeş, eyni zamanda bizlərə sevgi dolu münasibəti hər birimizi duyğulandıran bir hadisə kimi qarşılanmışdı. Murat bəyin Azərbaycan əsilli olduğunu biləndən sonra bu hüsnrəğbət bir qədər də artmışdı.

Sonralar tale bizi Bakıda dəfələrlə görüşdürdü. Murat bəy Azərbaycandakı Türkiyə Səfirliyinə göndərildi, səfirin mədəniyyət və turizm müşaviri vəzifəsində çalışdı. Bu müddətdə Azərbaycan–Türkiyə münasibətlərinin inkişafına töhfə verən layihələrə imza atdı. Azərbaycanlı jurnalistlərin və turizm işçilərinin Türkiyəyə tanışlıq, işbirliyi qurmaq səfərlərinin təşkili, Bakı–İzmir təyyarə reysinin açılması üçün təkliflərin, ölkəmizin turist imkanlarının genişləndirilməsi üçün təyyarə biletlərinin və otel qiymətlərinin aşağı salınması ilə bağlı maraqlı təkliflərin müəllifi də Murat Karaçanta idi.

XX əsrin əvvəllərində Bakını bolşevik-daşnak işğalından xilas edən qəhrəman Nuru Paşa haqqında sənədli filmin çəkilişi haqqında layihə də Murat bəyin ideyası idi. Onlarca belə layihənin bəziləri həyata vəsiqə alsa da, təəssüf ki, Murat bəyin Türkiyəyə dönüşündən sonra bir qismi yarımçıq qaldı.

Egey bölgəsinin Azərbaycan əsilli “mədəniyyət naziri”ndən gördüyüm isti münasibət, dost və qardaş qayğısı mənim üçün hər dəfə xoş duyğuların müjdəçisi olur. Türkiyənin Qars şəhərində doğulan Murat Karaçantanın babaları vaxtilə Türkiyəyə Qərbi Azərbaycandan–Amasiyadan köçənlərdən olub. Özü bu barədə söhbətlərində bildirirdi:

– Ötən əsrin 20-ci illərində sovetlər yeni qurulanda Qərbi azərbaycanlılar doğma tarixi torpaqlarından didərgin salındı, kütləvi qırğınların, qanlı fəlakətlərin qurbanı oldular. Miqyası genişlənən erməni-daşnak qırğınlarından can qurtaran babalarım Qarsa üz tutmuşlar. İllər uzunu burada yaşayıb ev-eşik sahibi olmuş və buraları Vətən bilmişlər. Onlar Qərbi Azərbaycandakı Amasiyanın Qaraçanta kəndindən idilər. Amma Vətəni unutmaq, ondan vaz keçmək heç vaxt mümkün olmayıb. Nənəm bu dünyaya göz yumanda Vətən, torpaq deyə-deyə, o tayda qalan doğmalarının, qardaşlarının adlarını çağıra-çağıra can verib. Babalarım kəndlərinin adını özlərinə soyadı kimi qəbul etmiş, doğma yurd-yuvalarına olan həsrətlərini bununla dəf etməyə çalışmışlar. Şükürlər olsun ki, bu əmanəti nəslimizin onlarca övladları bu gün də şərəflə daşımaqda və qorumaqdadırlar.

***– Demək, bununla həm də Azərbaycanla bağlılığımızı yaşatdınız...***

– Uzun illər belə oldu. Amma əmioğullar, ən yaxın qohumlarla əlaqələr Azərbaycan müstəqilliyini qazandığı ilk günlərdən başlandı. Məmur kimi Bakıya – Türkiyə səfirliyinə təyinatım da taleyin bir xoş qisməti oldu. Azərbaycana böyük arzularla gəldim və burada gözlədiyimdən də böyük məhəbbətlə qarşılandım. Azərbaycanın bu günkü böyük uğurları, tarix səhifəsində yazdığı Qələbə Zəfəri məni hər şeydən çox fərəhləndirir, xoşbəxt edir. Güclü, tərəqqi etmiş Azərbaycanın müstəqilliyinin ilk günləri ilə indisini müqayisə etdikcə, çox böyük qürur duyuram.

Ümummilli lider Heydər Əliyevin Türkiyədə dillər əzbəri olan “Bir millət–iki dövlət” kəlamı Türkiyə–Azərbaycan münasibətlərinə ən böyük qiymətdir. Azərbaycan və Türkiyə barədə nə qədər yazılıb, söylənilsə də bu ifadədən yüksəyi yoxdur. Əslində, bu formula böyük Atatürkün “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir” deyiminin davamı olaraq onun mahiyyətini tamamlayır. Türk dünyasının ünlü şairi Bəxtiyar Vahabzadənin iki misrasını xatırlayıram: “Bir ananın iki oğlu, Azərbaycan–Türkiyə”.

Murat bəy daha sonra qeyd etdi ki, 15 iyun 2021-ci ildə Qarabağın siyasi mərkəzi olan Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın imzaladığı strateji tərəfdaşlığa dair Şuşa Bəyannaməsi iki ölkənin münasibətlərini ən yüksək səviyyəyə qaldırdı. Bakı və Ankaranın hərbi-siyasi, iqtisadi sahələrdə müttəfiqliklərini rəsmi şəkildə elan etməsi Azərbaycanın Cənubi Qafqazda yaratdığı reallıqlardan bəhrələnir. 44 günlük müharibədə qazanılan tarixi zəfərdən sonra region yeni nəfəs almağa başladı və durmadan dünyaya açılır. Bu, həm də Qafqazın və bütün türk dünyasının yenidən yazılan zəfər tarixidir.

Zəngəzur dəhlizinin açılışı isə Azərbaycanla Türkiyəni yeni bir nəqliyyat layihəsi ilə birləşdirəcək. Qərbdən Şərqə bu ən qısa yol Azərbaycan, həm də regionun digər ölkələri üçün mühüm töhfələr verəcək. Bölgədəki ölkələri coğrafi olaraq birləşdirən bu dəhliz onlar arasında təkcə iqtisadi əlaqələrin möhkəmlənməsində yox, həm də siyasi yaxınlaşma üçün yeni qapı açır.

***Son hadisələrə, xüsusən də Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına münasibətində Murat bəy bildirir:***

– Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına sülh yolu ilə, təhlükəsiz qayıtması zamanın tələbidir. Zaman-zaman doğma yurd-yuvasından deportasiya olunmuş, müxtəlif təzyiqlərə məruz qalaraq isti ocaqlarından didərgin düşmüş insanlara, onların özlərinin və babalarının orada yaratdıqları maddi-mənəvi irsə, mədəniyyətə, maarifçilik mühitinə sahib olmaq bu insanların halal haqqıdır. Konsepsiya indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün “Qərbi Azərbaycan İcması”nın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi qaydaları müəyyən edir. Eyni zamanda beynəlxalq hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

Xalqımızın məhkum olunduğu bu tarixi ədalətsizliklər nə qədər qlobal xarakter daşısa da, Azərbaycan qətiyyətli iradəsi və uzaqgörən siyasəti ilə dünyaya bir daha sübut etdi ki, heç bir qüvvə Qərbi azərbaycanlıların hüquqlarının bərpasının və doğma torpaqlara qayıtmasının qarşısını ala bilməz. Nə qədər uzaqlarda olsaq da bu hadisələri həyəcanla izləməkdəyik. 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının bir qrup ziyalısı ilə görüşündə söylədiyi nitq Türkiyədə yaşayan bütün Qərbi azərbaycanlıların ürəyindən oldu. İndi qayıdış bizim üçün də əvəzi olmayan xəbərdir. Babalarımızın, nənələrimizin illər boyu həsrətlə gözlədikləri bu qayıdışın gerçəkləşdiyi günü görmək taleyimizin xoş qisməti və yazısı olacaq...

***Namiq ƏHMƏDOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 1 fevral.- S.8.